# Biz haqlıyıq, biz zəfər çalacağıq!

***Bir aya yaxındır ki, ikinci Qarabağ müharibəsi davam edir. Bu müharibə xalqımız üçün Vətən müharibəsidir. Biz Vətən torpaqlarını işğalçılardan azad edirik. Bu müddət ərzində Şanlı Azərbaycan Ordusu bir çox yaşayış məntəqələrini düşməndən azad edibdir. Biz döyüş meydanında tarixi ədaləti bərpa edirik. Çünki Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Əsrlərboyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb, qurub.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**




## Azərbaycan Ordusu tarixi ədaləti bərpa edir

**Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi üçün əks-hücum əməliyyatlarına başlayıb. Ötən bir ay ərzində silahlı qüvvələrimiz tərəfindən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, üç qəsəbə, 150-dən artıq kənd, eləcə də strateji yüksəkliklər düşməndən azad olunub. Bu müddətdə minlərlə canlı qüvvəsi və zirehli texnikası məhv edilən düşmənə dəfələrlə sarsıdıcı zərbələr vurulub və təcavüzkar Ermənistan silahlı qüvvələri geri çəkilməyə məcbur edilib.**

Oktyabrın 26-da Prezident İlham Əliyev xalqa müraciətində sentyabrın 27-dən indiyədək Ermənistanın məhv edilən və hərbi qənimət kimi götürülən texnikasının bir hissəsinin siyahısını diqqətə çatdırıb: “Tank – 252 tank məhv edilib, 53 tank qənimət kimi götürülüb. Toplam 305 tankdan Ermənistan məhrum edilib. Amma hələ tankları var. Görün nə qədər tank olub onlarda. Piyadaların döyüş maşını – 50-si məhv edilib, 29-u qənimət kimi götürülüb – cəmi 79 ədəd. Müxtəlif çaplı toplar – 251-i məhv edilib, 24-ü qənimət kimi götürülüb, cəmi 275. Minaatan – 61-i məhv edilib, 45-i qənimət kimi götürülüb, toplam 106. Tank əleyhinə vasitə – 53-ü məhv edilib. 82 “Qrad” qurğusu məhv edilib. 2 “Uraqan” yaylım atəşli raket sistemi, 1 “TOS” məhv edilib. Zenit-raket kompleksləri – 4 “TOR”, 40-a yaxın “OSA”, 4 “KUB”, 1 “KRUQ”, 2 “S-125” qurğusu məhv edilib. “S-300” ən bahalı qurğulardan biridir, 6 “S-300” atıcı qurğusu məhv edilib. Bir aşkaretmə stansiyası, bir lokator. Qiyməti bəllidir. Hər kəs hesablaya bilər. Əməliyyat taktiki raket kompleksləri – “Elbrus”, ikisi məhv edilib, “Toçka-U” biri məhv edilib. Yük avtomobilləri – 231 yük avtomobili məhv edilib, onlardan 20-si sursatı ilə. 173 yük avtomobili hərbi qənimət kimi götürülüb. Biz düşməni toplam 404 yük avtomobilindən məhrum etmişik”.

Xatırladaq ki, bu müddətdə cəbhədə uğurlu hərbi əməliyyatlar aparan silahlı qüvvələrimiz döyüş ruhu, peşəkarlığı ilə diqqət çəkdi. Azərbaycan Ordusu müasir texnoloji döyüş üsullarından istifadə etməklə yeni bir tarixə imza atdı.

Artıq beynəlxalq aləmdə Azərbaycanın bu müharibədə reallaşdırdığı taktika, hərbi-texniki vasitələr və texnologiyalardan danışılır, bütün bunların gələcəkdə dünya hərb tarixində xüsusi öyrəniləcəyi bildirilir.

Bu bir ay ərzində Azərbaycan öz mövqeyini mümkün qədər aydın şəkildə beynəlxalq ictimaiyyətə çatdırdı, haqq savaşı, haqq müharibəsi apardığını bütün dünyaya bəyan etdi, Ermənistanın təcavüzkarlığı qarşılığında əks-həmlə əməliyyatlarına başlamağa məcbur olduğunu sübut-dəlillərlə təsdiqlədi.

Burada bir məqamı xüsusilə vurğulamaq istərdik. Belə ki, bu hadisələr bir daha göstərdi ki, dünyada hələ də tam ədalətli bir sistem qurulmayıb. Müxtəlif maraqlar, xüsusilə böyük dövlətlərin mənafe toqquşmaları beynəlxalq münasibətlər sisteminin beynəlxalq hüquqa əsaslanmasına imkan verməyib. Əgər belə olmasaydı, ötən 30 il ərzində Azərbaycanın 20 faiz ərazisini işğal edən Ermənistan, necə deyərlər, yerində otuzdurulardı, düşmən qoşunları ərzilərimizdən geri çəkilməyə məcbur edilərdi. Lakin bütün bunlar olmadı. Əksinə, işğalçı dövlət hər addımda ədalətsiz şəkildə müdafiə edildi, silahlandırıldı. Nəhayət, Azərbaycanın səbr kasası daşdı, işğalçının hücum edib yeni torpaqlarımızı tutmaq istəyinə daha dözə bilmədi, əks-həmlə əməliyyatları keçirməyə məcbur oldu.

Azərbaycan bu gün cəbhədə əldə ediyi qələbələrin əsasını son 17 il ərzində qoyub. Ordumuzun güc-qüdrətinə mühüm önəm verilib, ən müasir döyüş texnikasının alınması gerçəkləşdirilib. Əsgər və zabitlərimizin sosial şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılıb. Azərbaycan Prezidenti çıxışlarının birində bu barədə danışarkən, deyib: “Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır”.

Bax, elə buna görə də belə bir orduya sahib olan dövlətimizin başçısı uzun illər ən yüksək tribunalardan daim bildirib ki, əgər münaqişənin həllində sülh danışıqları səmərə verməzsə, işğal altındakı torpaqlarımız hərbi yolla azad ediləcək.

Ötən illər ərzində Azərbaycan beynəlxalq mövqelərini də gücləndirib, dünyanın ən müxtəlif ölkələri ilə əlaqələrini yüksək səviyyəyə çatdırıb. Bu uğurlu əməkdaşlıq hazırda Ermənistanın havadarlarının Azərbaycana qarşı birləşdiyi məqamda öz müsbət nəticəsini verir, haqq səsimizin beynəlxalq kürsülərdə eşidilməsinə şərait yaradır. Məsələn, 2011-ci ildə Azərbaycanın keçmiş Sovet respublikaları arasında ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, NATO və Avropa İttifaqı ilə üzvlüyə nail olması, Qoşulmama Hərəkatına üzv olduğu doqquz il ərzində özünün uğurlu xarici siyasəti sayəsində bu təsisat daxilində böyük nüfuz və etimad qazanması bunun bariz ifadəsidir. Bir neçə gün bundan əvvəl BMT Təhlükəsizlik Şurasında Azərbaycanla bağlı mənfi fikirli sənədin imzalanmasına imkan verilməməsi də bunun bariz göstəricisidir.

Bax, bütün bunlar deməyə əsas verir ki, Azərbaycanın döyüş meydanında qazandığı qələbələr, həm də bütün ölkələrlə siyasi danışıqlarda haqlı və prinsipial mövqeyimizi qətiyyətlə qoruyan Prezident İlham Əliyevin müdrik siyasi xadim kimi səmərəli fəaliyyətinin, ötən dövr ərzində Azərbaycanı dünya arenasında layiqincə təmsil etməsinin, xalqımızın dövlət başçımıza dərin inam və etimadının məntiqi nəticəsidir.

Dövlətimizin başçısı bununla bağlı deyib: “Mən görürdüm, bəzi hallarda bu hadisələrə qədər Azərbaycan vətəndaşları, o cümlədən, köçkünlər hesab edirdilər ki, belə diplomatik uğurlar, əlbəttə, önəmlidir, ancaq onlar məsələnin həllini təmin etmir. Mən isə həmişə onlara izah edirdim ki, bu, beynəlxalq qanun çərçivəsində həll olunası bir məsələdir. Buna görə biz bütün aparıcı beynəlxalq təşkilatlarla işləməliyik ki, bu münaqişənin həlli üçün hüquqi bazanı genişləndirək. BMT Təhlükəsizlik Şurasının qətnamələri işləmirdi. Biz böyük səylər göstərdik, BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, digər təşkilatlar qətnamə qəbul etdi. Avropa İttifaqı ilə bizim aramızda paraflanmış sənəddə də sərhədlərimizin toxunulmazlığına, suverenliyimizə və ölkəmizin ərazi bütövlüyünə dəstək göstərilir. Yəni, budur bu münaqişənin həlli üçün əsas...”.

Beləliklə, Azərbaycan Prezidentinin vurğuladığı kimi, bizim düşmən üzərində möhtəşəm qələbəmiz xalqımızın birliyidir, məqsədyönlü fəaliyyətdir, beynəlxalq müstəvidə Azərbaycana sərf edən və ədalətə əsaslanan qərarların, qətnamələrin gerçəkləşdirilməsidir.

Azərbaycan döyüş əməliyyatları zamanı da haqqa, ədalətə söykənir, beynəlxalq konvensiyalara əsaslanır. Belə ki, Ermənistan tərəfinin uğursuzluqdan isterikaya düşərək Azərbaycanın döyüş bölgəsində yerləşməyən rayon və şəhərlərində dinc əhalini, qadınları və uşaqları raket və artilleriya zərbələri ilə atəşə tutmasına baxmayaraq, Azərbaycan Ordusu düşmənin yalnız hərbi obyektlərini hədəfə alır, hətta mülki əhalinin ziyan görməməsi üçün onları bu cür obyektlərdən uzaq durmağa çağırır.

Döyüşlərin ilk günündən Azərbaycan xalqı yekdilliklə əmliyyatları dəstəkləyib, on minlərlə vətən övladı könüllü şəkildə döyüşlərdə iştirak etmək üçün müraciət edib. Bu gün hamı “hər şey vətən üçün, hər şey cəbhə üçün, hər şey qələbə üçün” şüarı ilə ordumuzun tam qələbəyə nail olması məqsədilə əlindən gələni edir.

Dilindən, dinindən, siyasi və sosial mənsubiyyətindən asılı olmayaraq, hər kəs ölkə rəhbərliyini səmimi şəkildə dəstəkləyir və eyni amal uğrunda bir yumruq kimi birləşərək Prezident İlham Əliyevin növbəti dəfə xalqa müraciət edərək yeni qələbə xəbərləri verməsini gözləyir.

Ermənistan vətəndaşları tərəfindən isə öz silahlı qüvvələrində fərariliyin, özbaşınalığın vüsət aldığını, orduda ərzaq və digər zəruri tələbat növlərinin çatışmazlığını əks etdirən videolar çəkilib sosial şəbəkələrdə paylaşılır. Belə videoların birində erməni işğalçısı orududakı vəziyyəti göstərərək bildirir ki, silahları, çəkmələri, paltarları yoxdur. Onlarla rəhbərlikdən heç kim maraqlanmır. Görüntüdən məlum olur ki, əsgərlər bu vəziyyətlə bağlı kəskin etirazını bildirirlər.

Onu da qeyd edək ki, bir ay ərzində üç dəfə imzalanan humanitar atəşkəs düşmən tərəfindən pozulub. Bununla da işğalçı istər cəbhə xəttində, istərsə də müharibə bölgəsindən uzaq ərazilərdə yerləşən yaşayış məntəqələrimizə qarşı ardıcıl olaraq təxribatlar törədib, dinc sakinləri atəş altında saxlayıb. Amma Azərbaycan Ordusunun əks-həmləsindən əvvəl “Qarabağ Ermənistandır və nöqtə” deyərək yeni torpaqların qəsb iddiasını gizlətməyən primitiv düşüncəli, faşist xislətli Nikol Paşinyan bu gün silahlı qüvvələrimizin güc-qüdrəti qarşısında təslim olmaq, işğalçılıq siyasətini dayandırmaq əvəzinə, dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara utanıb-qızarmadan heç bir düşüncəyə, məntiqə əsaslanmayan yalan məlumatlar verməkdə davam edir.

Cəbhədə döyüşlər getdiyi müddətdə düşmən ağır itkilər verərək, geri çəkilməyə məcbur olsa da, ağır artilleriyadan dinc sakinlərə atəş açmaq, dağıntılar törətmək, infrastruktura ziyan vurmaq kimi çirkin əməllərindən əl çəkməyib. Naftalan, Tərtər, Ağdam, Daşkəsən, Gəncə və digər şəhərlərə qarşı edilən terror nəticəsində çox sayda dinc sakin qətlə yetirilib, yaralanıb, sosial infrastruktur dağıdılıb.

Gəncədə törətdiyi terror aktları isə Ermənistanın faşist mahiyyətini bir daha nümayiş etdirdi. Azərbaycanın bu qədim şəhərinə yönələn vandalizm, barbarlıq aciz vəziyyətə düşən Ermənistanın cəbhədəki məğlubiyyətinin heyfini dinc insanlardan alması məqsədi daşıyırdı. Ölənlər və yaralananlar arasında körpələrin olması isə düşmənin faşist xislətinin, insanlığa sığmayan əməllərinin göstəricisi idi.

Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, sentyabrın 27-dən hazırkı vaxtadək ermənilərin yaşayış məntəqələrini atəşə tutması nəticəsində 65 mülki şəxs həlak olub, 297 nəfər yaralanıb. Bundan başqa, 402 mülki obyekt, 90 hündürmərtəbəli yaşayış binası və 2243 yaşayış evi yararsız hala düşüb.

Nəhayət, son vəziyyət barədə. İşğalçı Ermənistanla sentyabrın 27-dən başlayan qanlı müharibənin 30-cu günü də cəbhədə sakit keçməyib. Azərbaycan Ordusu düşmənə tutarlı cavablar verib. Müdafiə Nazirliyinin oktyabrın 26-da yaydığı rəsmi məlumata görə, ordumuz 26 oktyabr saat 08.00-dan qüvvəyə minən humanitar atəşkəs rejiminə bütün cəbhə boyu tam riayət edib. Lakin Ermənistan silahlı qüvvələri növbəti dəfə əldə olunan razılaşmanı kobud surətdə pozaraq, Tərtər, Ağdam, Füzuli, Laçın və Qubadlı istiqamətlərində yerləşən bölmələrimizin mövqelərini, həmçinin Tərtər və rayonun kəndlərini, Ağdamın yaşayış məntəqələrini, eləcə də Ermənistan–Azərbaycan dövlət sərhədində yerləşən yaşayış məntəqələrimizi və bölmələrimizin mövqelərini müxtəlif növ atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub. İşğalçı ölkə bütün bunlarla kifayətlənməyərək, Berd, Çəmbərək və Vardenis rayonları ərazisindən də Tovuz, Gədəbəy və Daşkəsən rayonlarının ərazilərini atəş altında saxlayıb.

Prezident İlham Əliyev oktyabrın 26-da xalqa müraciətində Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarının oktyabrın 25-də işğaldan azad edilmiş kəndlərinin adlarını da açıqlayıb. Ali Baş Komandan Zəngilanın Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd, Cəbrayılın Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər, Qubadlının Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan və Qubadlı şəhərinin yağılardan təmizləndiyini bildirib.

Oktyabrın 26-da Ali Baş Komandan, Prezident İlham Əliyev Qubadlı şəhəri və bu rayonun bir neçə kəndinin işğalçılardan azad olunmasında fərqlənən hərbi birlik komandirləri Yaşar Həsənovu və Zaur Quliyevi təbrik edib. Dövlət başçısı onlara Vətən uğrunda gedən döyüşlərdə yeni uğurlar arzulayıb.

Yeni humanitar atəşkəs rejiminə riayət etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 26-sı gün ərzində və 27-ə keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və cəbhəboyu zonaya yaxın yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutub. Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 1 ədəd T-72 tankı, 4 ədəd D-30 və 3 ədəd D-20 topu, 1 ədəd “Osa-AKM” ZRK, 1 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 1 ədəd radiolokasiya stansiyası və 6 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.




***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***